# Dilçilik tariximizin əvəzedilməz şəxsiyyəti,

## Türk dünyasının böyük dilçi alimi - Qəzənfər Kazımov...



*(Əvvəli ötən sayımızda)*

Onun məşğul olduğu filoloji elmi istiqamətləri təxmini də olsa təsnif edəsi olsaq, belə bir mənzərə ilə qarşılaşarıq:

- Azərbaycan dilinin tarixi;
- müasir Azərbaycan dilinin quruluşu (morfologiya və sintaksis);
- bədii əsərlərin dili;
- mətn dilçiliyi;
- komizm (satira və yumor) nəzəriyyəsi;
- folklorşünaslıq;
- üslub və üslubiyyat məsələləri;
- ədəbiyyatşünaslıq məsələləri;
- dialektologiya məsələləri;
- metodika, dilin tədrisi;
- Azərbaycan dili dərslikləri (orta və ali məktəblər üçün) və s...

Elə bu cür polifonizminə, yaradıcılıq palitrasının rəngarəngliyinə, tədqiqatında elmi istiqamətlərin çoxşaxəliliyinə görə onun qələmə aldığı əsərlər filoloji təfəkkürümüz üçün dəyərlidir, görümlüdür, cazibədardır... Və belə bir yaradıcılıq missiyasını gerçəkləşdirməyi ona orjinal, bənzərsiz istedadı, daim işlək təfəkkürü verir. Həmçinin, elə buna görə də filoloji iddiaçılıq ruhu, narsizmidən uzaq əsil alimə xas ambisiya onda üstündür və həm də xoşagələndir!.. Əslində Qəzənfər Kazımov ədəbi irsə malik alimdır. Qəzənfər müəllimin filoloji yaradıcılığı filoloji ənənələri davam etdirməklə yanaşı, onu inkişaf etdirən, ona yeni mövzular qatan, ən yeni və aktual mövzulara geniş diapozon ayıran, novatorluğu və elmi siqləti ilə fərqlənən bir irsdir... Elmdə irs yaratmaq isə fitrətən fövqəladə şəxsiyyətlərə məxsusdur!!

Əslində, Qəzənfər Kazımov adi, sıradan bir nəfər dilçi deyil, filosof dilçidir, düşünməyə və düşündürməyə təhrik edən, vəsilə yaradan alimdir!.. Onun əsərləri o qədər ağıllı, zərif və təsirlidir ki, sabitləşmiş filoloji qanunlar onun müqabilində haradasa gözə görünmür, ya da ağıla gəlmir. Qəzənfər müəllimin irəli sürdüyü elmi-nəzəri postulatlarda, fikirlərdə istedadlı tədqiqatçı, fəhmikar oxucu üçün zəngin fantaziya, yozum üfüqləri açılır. Bu üfüqdə görsənən sənət abidələrinə və bu abidələri yaradan yaradıcı şəxsiyyətin həyatından bəzi nüyanslara nəzər yetirək: Qəzənfər Şirin oğlu Kazımov 03 mart 1937-ci ildə Qarabağın füsünkar bölgəsi olan, Araz boyunda, Xudafərin körpüsü səmtində yerləşən Cəbrayil rayonunun alimlər, ziyalılar kanı olan Soltanlı kəndində müəllim ailəsində anadan olmuşdur. Atası Şirin Kazım oğlu 1943-cü ildə faşizmlə müharibədə həlak olmuşdur və onun da qismətinə uşaqlıqdan yetimlik kimliyi yazılmış, dizləri təpər tutandan isə ailədə atasının missiyası onun çiyinlərinə düşmüşdür... Orta məktəbi bitirmiş (1955), fərqlənmə diplomu ilə ali filoloji təhsil almış (1960), orta məktəbdə müəllim işləmiş (1960-1962), sonra əyani aspiranturaya daxil olmuş(1962), 1967-ci ildə müqtədir dilçi-akademik Əzəl Dəmirçizadənin rəhbərliyi ilə "Ə.Haqverdiyevin dramaturgiya dili" mövzusunda namizədlik, 1988-ci ildə "Azərbaycan sovet satirik nəsrinin dili: 1920-1940-cı illər (komizmin dil vasitə və üsulları problemi)" mövzusunda doktorluq dissertasıyaları müdafiə etmişdir. 1989-cu ildən professordur.

Müəllimlik fəaliyyəti onun həyatının ayrılmaz və şərəfli bir hissəsidir. Professor Qəzənfər Kazımov 1965-ci ildən bu günə qədər ziyalı-müəllim, alim yetişdirməklə məşğuldur. 1965-1999-cu ilə qədər o Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, baş müəllim, dosent, professor vəzifələrində çalışmış, uzun müddət filologiya fakültəsinin dekanı olmuşdur. Həmçinin o, Pedaqoji Universitetdə müdafiə şurasının sədr müavini (1990-1994), Ali Attestasiya Komsiyyasında ekspert şurasının üzvü (1996-1999) kimi onlarla alimin, müəllimin yetişməsində əvəzsiz xidmətər göstərmişdir. Bununla yanaşı o, bir müəllim-professor kimi Bakı Slavyan Universitetində, Azərbaycan müəllimlər İnstitunda, Bakı Qızlar Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında mühazirələr oxumuş, respublikamızın hər kəndində-şəhərində, orta və ali məktəblərində onun yetişdirmələri, tələbələri maarifçilik işi ilə məşğul olurlar. Və elə bu fədakar xidmətlərinə görə onu da ustadları kimi müəllimlər müəllimi adlandırmaq daha dürüstdür və bu titul ona ən çox yaraşır!..

Təkcə bir faktı bura əlavə edim ki, prof. Qəzənfər Kazımov iyirmidən çox filologiya üzrə fəlsəfə doktorunun elmi rəhbəri, 30-dan artıq fəlsəfə və elmlər doktorlarının opponenti, 85 kitabın elmi redaktoru olmuş, mərkəzi mətbuatda və xaricdə 450-yəqədər elmi və elmi-publisistik məqaləsi çap olunmuş, müxtəlif elmi əsərlərə 200-dən artıq rəy yazmışdır. Və onun əsərlərinə də respublikamızın ən say-seçmə ziyalıları, alimləri, şair və yazıçıları 200-dən çox rəy-məqalə yazıb dərc etdirmişlər ki, bu məqalələr bir neçə cild kitaba zorunan sığar.

Adlarını yuxarıda çəkdiyim kitablarla bahəm onun "Azərbaycan dilində təcürbi məşğələlər (1973), "Yazıçı və dil" (1975), "Komik bədii vasitələr" (1983), "Bədii ədəbiyyatda komizm üsulları" (1987), "Qurbani" (1990), "Qurbani və poetikası" (1996), "Sənət düşüncələri" (1997), «Üzeyir Hacıbəyovun dili» (2004), "Teorıə komizma" "Komizm nəzəriyyəsi",(2004, rus dilində), «Dilimiztariximiz» (1998), «Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)» (2003), «Dil, Tarix, Poeziya» (2005), «Qədim yurd yerim- sultan Soltanlı son 300 ildə» (2012), «Homerin poemaları və «Kitabi-Dədə Qorqud» (Təbriz, 2014), "Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi" (2010) monoqrafiyaları, Ali məktəblərin filologiya fakültələri üçün "Müasir Azərbaycan dili. Sintaksis" (2000), "Müasir Azərbaycan dili. Morfologiya" (2010) dərslikləri nəşr olunmuşdur. Otuz ildən artıqdır ki, rus məktəbinin 2-3-cü, Azərbaycan məktəblərinin 8-9-cu sinif şagirdləri onun "Azərbaycan dili" mükəmməl dərslikləri ilə təhsil alır. 2008-2010-cü illərdə Qəzənfər Kazımovun hərəsi 35-40 çap vərəqi həcmində on cildlik "Seçilmiş əsərlər"i cap olunmuşdur. Ümumiyyətlə üst-üstə götürəndə prof. Qəzənfər Kazımov 80-ə yaxın kitabın müəllifidir. Həmçinin, onun bu elmi əsərləri ilə yanaşı tərcümə əsərləri, hekayə və minatürlərdən ibarət bədii nəsri, xatirə-oçerkləri də mövcuddur. Onun bir sıra əsərləri Türküyə türkcəsində, rus və ingilis dillərində çap olunmuş, xüsusi maraqla qarşılanmışdır...

Azərbaycan dilinin əsl bayramı olan bu kitablar, bu on cildlik kərpic-kərpic "Seçilmiş əsərlər", bu elmi külliyyat təkcə reallıq, dərinlik, sadəlik, aydınlıq, müdriklik salnaməsi kimi ədəbi fakta çevrilmədi, həmçinin əbədiyaşar elmi fakt kimi Azərbaycan dilçilik tarixinə yazıldı, həm də müasir mərhələnin dil tarixinin özünü yaratdı...

Qəzənfər Kazımov 1999-cu ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda yüksək işgüzarlıqla fəaliyyət göstərir. 2001-ci ildən isə İnstitutda Azərbaycan dialektologiya şöbəsinin müdiri olmuş, bu dövrdə də neçə-neçə aspirantın, dissertantın və elmi əməkdaşın ustadıdı, müəllimi, rəhbəri, yol göstərənidir. Təsadüfi deyildir ki, bilavasitə onun rəhbərliyi, müəllifliyi və təşkilatçılığı sayəsində şöbə "Azərbaycan dialektologiyası" seriyasından 12 kitab buraxılmışdır. Bu kitabların hər birinin böyük elmi və sosial-tarixi əhəmiyyətini qeyd etməklə yanaşı, xüsusən "Azərbaycan dilinin Dərbənd dialekti", "Azərbaycan dilinin Meğri şivəsi", "İraq-Türkman ləhcəsi" (müəllifi prof.Qəzənfər Paşayevdir) kitabları fikrimizcə əlahiddə ictimai-tarixi əhəmiyyətə malikdir...

Azərbaycan filologiyasında cox böyük yeri, zəhməti və xidməti olan, Qəzənfər müəllimin adaşı professor Qəzənfər Paşayevin bu əsərlər barəsində fikri də əlahiddədir: "Qədim zamanlar bir yana, hətta orta əsrlərdə səyyahların, elm adamlarının, yazarların Azərbaycan haqqında dediyi hər hansı bir fikri əzizləyəəzizləyə dəyərləndiririk. O da olsun dəlilə-sübuta ehtiyac duyulmayan "Azərbaycan dilinin Dərbənd dialekti", "Azərbaycan dilinin Meğri şivəsi" və "İraq-Türkman ləhcəsi" kimi tarixi abidələr. Adı çəkilən ölməz abidələrin işıq üzü görməsində Q.Kazımovun əməyi az olmamışdır. Gələcək nəsillərə bundan böyük ərmağan düşünmək çətindir."

Elə bu qəbildən olan "nəsillərə ərməğan əsərlərinə", təkrarsız alim şəxsiyyətinə görə professor Qəzənfər Paşayev adaşı professor Qəzənfər Kazımovu özünəxas ürək açıqlığı və bir az da fəxarətlə "xoşbəxt tədqiqatçılar sırasında" görür!

AMEA-nın müxbir üzvü Nizami Cəfərov isə Qəzənfər Kazımovun yazdığı əsərləri böyük zəhmətin və istedadın, "gərgin əməyin və böyük başın" bəhrəsi kimi qəbul etmiş, onları "tək Qəzənfər müəllimin əsərləri deyil, zəmanəmizin əsərləri!" adlandırmışdır!.. Nizami Cəfərov Qəzənfər müəllimin fenomenal erudisiyasını belə səciyyələndirir: "Ümumi baxanda hiss olunur ki, onun baxışlarında təxminən Lixaçovun müasir ədəbiyyata ümumi baxışı tipində bir baxış var. Yəni ümumi mədəniyyət, ümumi düşüncə, milli təfəkkürdən gəlmə, tənqidçilikdən çox bir maarifçi-ədəbiyyatşünasın işi... Təxminən elə bil ki, bu yazıları Abdulla Şaiq yazıb. Bu tipdə bir maarifçi baxışı var bizim ədəbi prosesə, heyrətlənmək var o yazıların qarşısında və bu heyrətin, elə bil, xəritəsini yaratmaq var, belə bir dərəcədə ki, elə bil, ədəbiyyatın metodologiyasını yaradır!"

Professor Yusif Seyidov isə Qəzənfər Kazımovu "sözün geniş mənasında, filologiyanın bütün sahələrini birləşdirə bilən çox samballı, gözəl əsərlər" müəllifi kimi qiymətləndirmişdir. Bu məqamda xalq yazıçısı Anarın da fikri maraqlıdır: "Müasir Azərbaycan ədəbiyyatı, ədəbiyyat tariximiz, qədim və müasir dilimiz, sənət və sənətkarlıq məsələləri prof. Qəzənfər Kazımovun maraq dairəsinə daxildir. O, ədəbiyyatımızın bütün dövrləri haqqında öz fikirlərini, mülahizələrini, öz müşahidələrini yüksək səviyyədə bizə təqdim edir."

Xalq şairiSöhrab Tahir isə böyük bir sənətkar səmimiyyəti ilə Qəzənfər Kazımova məhəbbət və hörmətini belə ifadə edir: "Azərbaycan dilinin qeyrətini çəkən bir alim kimi, dilimizin poetikliyini, onun qədimliyini öz məqalələrində oxucuya, elmi auditoriyaya gözəl məntiqlə çatdıran bir adam kimi mən Qəzənər müəllimi çox sevirəm!"

Bütün bu həm yaradıcı, həm insani keyfiyyətlərinə görə, istedadı, işgüzarlığı, sadəliyi, təvazökarlığı, qayğıkeşliklə yoğrulmuş tələbkarlığı ona həm iş yoldaşları arasında, həm də ədəbi ictimaiyyətdə böyük hörmət, rəğbət, nüfuzla yanaşı, çoxlarına qismət olmayan səmimiyyətlə yoğrulmuş məhəbbət, sevgi qazandırıb! Beləliklə, uzun illərdir ki, Qəzənfər Kazımov müasir filologiyamızın problemlərindən yüksək elmi-nəzəri səviyyədə yazılmış əsərləri və müəllimlik fəaliyyətilə ilə bu sahənin yeni nəsillərinin hazırlanıb ərsəyə gəlməsinə məsuliyyətlə xidmət edir və bizə elə gəlir ki, sonsuza qədər də xidmət edəcəkdir...

Qəzənfər Kazımov alnına öz taleyindən daha çox dilçilik elmimizin taleyi yazılmış nurlu kişi, böyük insandır... Dilçiliyin poetika tədqiqat qolunu yaradan bu böyük alimin yüksək bədii zövqü, bədii sözün aşıdığı yükün elmi mahiyyətini aşkarlamaq bacarığı, həssalığı, duyum palitrası oxucusunu heyran qoyur. Mən cəsarətlə deyərdim ki, muasir dilşünaslıqda Qəzənfər Kazımov yeni, təzə, bənzərsiz kolorit yaradıb!! Qəzənfər Kazımov dilçilik koloriti!! İndi müsiqidə belə bir anlayışı - interpretasiya anlayışını, aranjiman anlayışını xüsusi yaradıcılıq əlaməti kimi tez-tez işlədirlər. Bəlkə də musiqi sahəsində belədir və kimlərəsə sərf edir... Amma elmdə bu keçməz! Nə gizlədək, elələri var ki, onun "elmi yaradıcılığı" elə aranjimandan və interpretasiyadan ibarətdir. Amma Qəzənfər Kazımovun bu 85 illik yaradıcılıq məhsullarında bir cümlənin belə interpretaiyasını, aranjimanını görə bilməzsən! Onun külli yaradıcılığı milli Azərbaycan dilçiliyimizin böyük sənət mənasında səviyyə göstəricisidir, humanitar elmimizin barometridir!

Demokritin məşhur kəlamı var: "Elmi hər adamın əlinə vermək olmaz. Elmi o adamın əlinə vermək lazımdır ki, ondan özü üçün yox, xalq üçün istifadə etsin!" Professor Qəzənfər Kazımov xalqının dilini öyrəndiyinə və öyrətdiyinə görə xalq üçün düşünən böyük, əvəzedilməz, əbədiyaşar xalq ziyalısıdır, xalq alimdir!..

Mən prof. Qəzənfər Kazımovun barəsində yazdığım bu məqaləni AMEA-nın müxbir üzvü, Əməkdar Elm xadimi, Qəzənfər müəllimin həmkəndlisi prof.Tofiq Hacıyevin sözləri ilə bitirmək istəyirəm: "Qəzənfər bu gün bizim filologiyamızın bu səviyyədə var olmasını təmin edən alimlərdən biridir. ...Qəzənfər müəllim dilçiliyin, filologiyanın həmişə lazım olan məsələlərindən, ehtiyac olan problemlərindən yazıb. ...Qəzənfər bu gün bizim dilçiliyimiz üçün lazımlı Adamdır! Qəzənfər bu gün bizim orta və ali məktəb təhsili üçün lazımlı Adamdır! Həqiqətən Qəzənfər yaxşı adamdır, yaxşı alimdir!"

Bu lazımlı adama, yaxşı adama, yaxşı alimə - Qəzənfər Kazımova uzun ömür, cansağlığı, həmişəişlək təfəkkür arzulayırıq!.. Qürurla qeyd edirəm, 85 yaşını haqlayan prof.Qəzənfər Kazımov Azərbaycan humanitar elminin moqikan, patriarx varisidir və bu səviyyədə varislik onun halal-hümmət haqqıdır! 85 yaşlı Qəzənfər Kazımov həmişə olduğu kimi, bu gün də humanitar elmimizin ön cərgəsindədir və mən sidq-ürəkdən inanıram ki, 90-da da, 100-də də və həmişə belə olacaqdır!

***Qurban BAYRAMOV,***
***ədəbiyyatşünas-tənqidçi.***
***AMEA Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutu.***

**03.04.2022.**